# Pandemiya şəraitində məmur-vətəndaş təmasının minimumlaşdırılması ilə bağlı mühüm addımlar atılıb

***Avqustun 31-də Prezidentin köməkçisi Hikmət Hacıyev ekologiya, sudan səmərəli istifadə və səhiyyə istiqamətində fəaliyyət göstərən 41 QHT-nin sədri ilə görüş keçirdi. Prezidentin köməkçisi videoformatdakı çıxışında öncədən QHT rəhbərlərinin irəli sürdüyü təkliflərin araşdırılacağını və əsaslandırılmış hissəsinin nəzərə alınacağını, o cümlədən dövlət qurumları ilə QHT-lərin birgə əməkdaşlıq imkanlarının genişləndirilməsi, ictimai nəzarətin gücləndirilməsi məqsədilə müvafiq addımların atılacağını qeyd etdi.***



Analitik hesabatda pandemiyanın makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan sosial dəstək tədbirlərinə münasibət göstəriciləri də ictimai rəy əsasında qiymətləndirilib.

Bu barədə danışarkən, əvvəlcə bir məqamı xüsusi vurğulamaq istərdim. Belə ki, ölkə əhalisinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi Prezident İlham Əliyevin apardığı siyasətin daim başlıca prioritetlərindən olub. Dövlət başçısının birbaşa rəhbərliyi altında pensiya, ünvanlı yardım, əlilliyə görə müavinətlərin verilməsi və məşğulluq sahələrində şəffaflığın və sosial ədalətin tam təmin edilməsi, bürokratiya, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılması, məmur-vətəndaş təmasının minimumlaşdırılması ilə bağlı mühüm addımlar atılıb.

Belə addımlardan birini xüsusi xatırlatmağı zəruri bilirəm. Qeyd edim ki, dövlət başçısının islahatlar proqramına, habelə, 9 avqust 2018-ci il tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına uyğun olaraq ötən müddətdə respublikamızda dövlət sosial xidmətləri sisteminin mütərəqqi beynəlxalq təcrübəyə və innovativ yanaşmaya əsaslanan çevik mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq prinsiplərinin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib.

Yeri gəlmişkən, elektron xidmətlərin mühüm rolunu xüsusi vurğulamaq istərdim. Belə ki, burada əsas məqsəd dövlət qulluqçuları və vətəndaşlar arasında münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Bu xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması dövlət qurumlarına vətəndaşların inamını yüksəltməyə əlverişli şərait yaradır.

Bu fikri Azərbaycanda koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlərlə bağlı bir qədər də genişləndirsəm, deyə bilərəm ki, ötən müddətdə respublikada, təqribən, 5 milyona yaxın insanı əhatə edən geniş sosial paket reallaşdırılıb. Dövlət sektorunda çalışan 900 min vətəndaşın böyük əksəriyyəti faktiki olaraq işləmədiyi halda, dövlət tərəfindən əməkhaqqı alıb, 760 min insana lazımi maliyyə dəstəyi göstərilib və onların iş yerləri qorunub. Altı yüz min işsiz şəxs, o cümlədən, qeyri-formal məşğulluqda fəaliyyət göstərən və müvəqqəti öz işini itirən, aztəminatlı təbəqəyə aid olan insan dövlət tərəfindən qayğı ilə əhatələnib. Onlara ay ərzində 190 manat müavinət verilib.

Burada diqqətçəkən məqam, həm də odur ki, yuxarıda vurğulanan maliyyə prosesləri elektron xidmətlər vasitəsilə gerçəkləşdirilib. Əsas məqsəd isə yuxarıda qeyd etdiyim kimi, əhalinin sosial durumunun yaxşılaşdırılması ilə bərabər, dövlət qulluqçuları və vətəndaşlar arasında münasibətlərin sadələşdirilməsi və şəffaflaşdırılması olub. Ümumiyyətlə, maliyyə proseslərinin elektron xidmətlərin cəmləşdirildiyi portallar üzərindən həyata keçirilməsi vətəndaş-məmur təmasının aradan qaldırılmasına və nəticədə vətəndaş məmnunluğunun artırılmasına gətirib çıxarıb. Şübhəsiz ki, belə bir vəziyyət Azərbaycan Prezidentinə ictimai inam və etimadın qorunub saxlanılmasında, milli birliyin təmin edilməsində önəmli vasitələrdən biri olub.

***Sakit HÜSEYNOV,***
***AMEA-nın Fəlsəfə İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru, professor***

Xalq qəzeti 2020.- 4 sentyabr.- S.3.